Food and Agriculture Organization of the United Nations

Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi

# Süd sağımının miqdarını artırmaq üçün



1



© Lukas Guertler

## Mal-qaranız üçün hər zaman təmiz, təzə və peyinlə çirklənməmiş döşənəklərdən istifadə edin.

Mastitin (yelinin infeksiyası) yaranmasına səbəb olan patogenlər çirkli döşənəkdə ola və inək uzanarkən yelinə ötürülə bilər.

2



© ShutterStock

## İnəklərinizi günün həmişə iki eyni vaxtında sağmağa çalışın.

İnəklərin gündəlik rejimdən xoşu gəlir. Müntəzəm sağım və qida rejimi inəklərin məruz qaldığı stressi azalda bilər.

3



© ShutterStock

## Sağım zamanı radioya qulaq asın, sakit davranın və stressli amilləri (itlər, yüksək səslər və s.) azaldın.

İnəklərin sağımı stresssiz şərtlərdə baş verdikdə, bu, həm süd hasilatını artırır, həm də yelinlə bağlı problemləri azaldır.

4



© Sara Winter

## Sağım növbəsi yaradın.

Sağlam inəkləri həmişə ilk növbədə sağın. Sağlamlıq vəziyyəti sual altında olan inəkləri ikinci növbədə sağın, xroniki mastiti olan inəkləri üçüncü qrupa saxlayın. Xəstəliklərin yayılmasının qarşısını almaq üçün xəstə və infeksiyalı inəklər axırda sağılmalıdır.

## Sağımdan əvvəl və sağım zamanı əllərinizi təmizləyib dezinfeksiya edin.

Mümkün olarsa, rezin əlcəklərdən istifadə edin və sağım zamanı əllərinizi tez-tez dezinfeksiya etməyə çalışın.




## İnəyin yelinindən bütün çirk və peyini təmizləyin və sağımdan əvvəl əmcəkləri dezinfeksiya edin.

Hər bir inək üçün dezinfeksiya edici kimyəvi maddələrdən və ayrıca kağız dəsmallardan istifadə edin və əmcəkləri bunlarla tam qurudun!




## Bütün əmcəklərdə ilkin sağım həyata keçirin.

Bu təcrübə bir neçə damcı südün qara plastik səthə sağılmasını ehtiva edir. Süddə qatılaşma və sapşəkilli izlər axtarın, bunlar mastitin əlaməti ola bilər. Əmcəklərin sağım öncəsi hazırlanması və ilkin sağım yelini stimulyasiya edir və südün daha yaxşı sağılmasına səbəb olur.




## Sağımdan sonra əmcəkləri dezinfeksiya edin.

Əmcəklərin yekun dezinfeksiyası sağımdan sonra əmcəkləri sadəcə dezinfeksiya etmir, onlar əmcəyin səthində təbəqə yaradır, bununla baryer formalaşdıraraq patogenlərin yelinə daxil olmasının qarşısını alır.





© Valdis Skudre

## 9 Sağımdan sonra heyvanlara yem verin.

İnəklər qidalanarkən ayaq üstə dayandığından, döşənəkdəki zərərli patogenlər əmcək kanalının açıq olduğu müddətdə yelindən uzaqda qalır.



© Google Images

## 10 İçlik və boruları müntəzəm olaraq dəyişin.

Südsağan maşının davamlı şəkildə nasazlıq olmadan işləməsi üçün bu hissələr tələb olunan intervallarda dəyişdirilməlidir. Rezin səthlərdəki çatlar mastitə səbəb olan mikroorqanizmlərin yayılması üçün əlverişli yerdir.



© Google Images

## 11 Maşınla sağımdan sonra əmcəklərin ətrafındakı halqalara diqqət göstərin.

Maşınla sağımdan sonra əmcəklərin ətrafındakı halqalar olması, maşının düzgün sazlanmamasını göstərir. Dərhal texniklə məsləhətləşin.



© Google Images

## 12 Baytarlıq laboratoriyasının köməyindən faydalanın.

Baytarlıq laboratoriyaları xəstəliktörədici patogenlərin mənbəyini müəyyən etməyə, nəticə etibarilə sizin problemin kökündə duran səbəbləri müəyyən etməyinizə kömək edə bilər (misal üçün, patogen mikrobların sağım rejimi ilə, yoxsa inəklərin yatdığı mühitlə (döşənəklə) əlaqədar olması).

**Bəzi hüquqlar qorunur.**
Bu iş CC BY -NC -SA 3.0 IGO lisenziyası altında mövcuddur.

© FAO, 2021
CB0910AZ/12/06.21